**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)**
**21 sentyabr-Beynəlxalq Sülh Günü münasibətilə dünya ictimaiyyətinə**

**MÜRACİƏTİ**

Sülh - həyat, yaşamaq, sağlam nəsillər deməkdir. Bütün bunların toplumu ayrı-ayrı ölkələrdə, dünyada, davamlı inkişaf, qarşılıqlı əməkdaşlıq deməkdir.

Bəşəriyyətin dayanıqlı inkişafı, insan hüquq və azadlıqlarının həyata keçirilməsi sülh və təhlükəsizliyin təmin edilməsindən asılıdır. Davamlı inkişafa yönəlmiş yol məhz sülh, ədalət, tolerantlıq, qanunun aliliyindən və insan hüquqlarından keçir.

BMT-nin qərarı ilə dünya miqyasında əlamətdar gün kimi qeyd edilən “21 sentyabr – Beynəlxalq Sülh Günü” insanların həqiqətə olan hüquqlarını, zorakılıqsız və münaqişəsiz cəmiyyəti, firavan həyatı təcəssüm etdirir.

BMT-nin Baş Assambleyasının 39/11 saylı 12 noyabr 1984-cü il tarixli qətnaməsi ilə qəbul edilən və bu il 30 illiyi qeyd olunan “Xalqların sülh hüququna dair” Bəyannaməsində də xalqların sülh hüququna xüsusi status verilərək, bu hüquq heç bir ayrı-seçkiliyə yol verilmədən insanların müqəddəs hüququ kimi bəyan edilmişdir. Bu isə sülh hüququnun təmin edilməsinin zəruri olduğunu bir daha təsdiq edir.

1995-ci il UNESCO-nun Dözümlülük haqqında Prinsiplər Bəyannaməsində deyildiyi kimi, tolerantlıq, sülh, ədalət, qarşılıqlı anlaşma və ehtiram üçün əsas təməl rolunu oynayan dözümlülük “sülhü mümkün edərək müharibə mədəniyyətinin sülh mədəniyyəti ilə əvəz olunmasını təbliğ edir”. Adı çəkilən Bəyannamələr hər bir dövlətin üzərinə sülhün təmin edilməsi və qorunması öhdəliyini qoyur.

Sürətlə qloballaşan dünyada mövcud siyasi, iqtisadi və mədəni proseslər hər bir ölkədən zamanın təxirəsalınmaz çağırışlarına adekvat cavab verməyi tələb edir. Bu isə dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsi, yeni kreativ təfəkkürün və innovativ mühitin bərqərar olunması, eləcə də insanın dini əqidəsinə hörmətlə yanaşılması, irqçiliyin və dözümsüzlüyün hər hansı təzahürünün ləğvi ilə mümkündür.

Təəssüf ki, dövlətlər, konfessiyalar və sivilizasiyalararası ziddiyyətlər genişlənir, yeni müharibə ocaqları yaranır.

Fərqli dinlərə və inanclara mənsub insanların əsrlərdən bəri qarşılıqlı anlaşma şəraitində yaşadığı, sülhməramlı mövqeni dəstəkləyən və buna sadiq olan Azərbaycan tarixinin son 25 illik dövrü Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal edilməsi və azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, xalqımızın müharibə dəhşətlərini öz taleyində yaşaması, əzəli torpaqlarından qovulmuş yüz minlərlə soydaşımızın çadır düşərgələrinə, qaçqın və məcburi köçkün qəsəbələrinə sığınması, onların insan hüquqlarının kütləvi şəkildə və kobudcasına pozulması ilə müşahidə olunmuşdur.

Bu gün atəşkəs rejiminə baxmayaraq, erməni hərbi birləşmələrinin mütəmadi olaraq, bu sazişin şərtlərini pozması, kütləvi yanğınlar törətməklə, sərhədyanı kəndlərə müxtəlif silahlardan atəş açmaqla mülki əhaliyə ziyan vurması, o cümlədən dinc əhalini girov götürməsi insanların həyatına təhlükə yaradır, onların yaşamaq, sərbəst hərəkət etmək və başqa hüquqlarını pozur.

Bütün bunlar mülki əhalinin, uşaqların, qadınların, ahılların, əlillərin hərbi münaqişələr zamanı insan hüquqlarının qorunmasına aid beynəlxalq sənədlərin, o cümlədən BMT-nin 14 dekabr 1974-cü il tarixli "Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında Bəyannamə"sinin, “Silahlı münaqişələr (müharibələr) dövründə mülki əhalinin müdafiəsi haqqında” 1899 və 1907-ci illər Haaqa Konvensiyalarının, “Müharibə qurbanlarının müdafiəsi haqqında” Cenevrə Konvensiyası (1949) və onun I və II Əlavə protokollarının (1977), habelə Uşaq Hüquqları Konvensiyasının (1989) müddəalarının ciddi şəkildə pozulması ilə nəticələnir. Bu kimi halların davam etməsi, çoxsaylı cəzasızlıq presedentləri yaradır. Cəzasızlıq isə insanlıq əleyhinə yeni cinayətlərə, dinc əhalinin təhlükədə qalmasına şərait yaradır.

BMT Təhlükəsizlik Şurasının 1993-cü il 822, 853, 874 və 884 saylı qətnamələrinin, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağla bağlı münaqişənin həll edilməsi, regionda sülh və təhlükəsizliyə təhlükə yaradan bütün hərbi əməliyyatların, düşmənçilik aktlarının dərhal dayandırılmasını, atəşkəsin təmin edilməsini, bütün erməni hərbi qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasını nəzərdə tutan BMT Baş Məclisi tərəfindən qəbul edilmiş 14 mart 2008-ci il tarixli qətnamənin tələbləri yerinə yetirilmir. Sülhə və təhlükəsizliyə saymazyana münasibət bəslənilir, işğal altında olan torpaqlarımızda

mövcud mədəni irsimiz mənimsənilir, nadir tarixi abidələrimiz amansızcasına dağıdılır. Bütün bunlar dünyada sülhün bərqərar olmasına mənfi təsir göstərir.

Bu baxımdan BMT, Avropa Şurası, ATƏT və digər beynəlxalq təşkilatların əsas vəzifələri sırasında universal sülhün möhkəmləndirilməsi istiqamətində qətiyyətli tədbirlərin görülməsinin, sülhün pozulmasına gətirib çıxara bilən münaqişələrin dinc vasitələrlə ədalətli şəkildə və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq nizamlanmasının vacibliyini ***vurğulayaraq,***

Dünya səviyyəsində etnik təmizləmə siyasətinə görə cəzasızlığı və bu məqsədlə onu törədənlərin cəzalandırılmasının zəruriliyini ***qeyd edərək,***

"Dinlər – sülh körpüsü" təşəbbüsü ilə ***çıxış edərək,***

Müharibə və fəlakətlərin yaratdığı təhlükələrlə üzləşən, acınacaqlı vəziyyətdə yaşayan ölkələrə dəstək verilməsinin zəruriliyini bir daha ***önə çəkərək,***

Məlum münaqişə nəticəsində torpaqlarının 20 faizi işğal olunmuş, bir milyondan çox qaçqın və məcburi köçkününün pozulmuş hüquqlarının müdafiəsini, öz doğma yurd-yuvalarına qayıtmasını gözləyən, silahlı münaqişədən dinc əhalisi əziyyət çəkən ölkə ***olaraq,***

Xalqların sülhə, inkişafa, həqiqətə olan hüquqlarını ***bəyan edərək,***

İnsan hüquqlarına hörmət edilməsi prinsipi ilə bilavasitə əlaqəli, beynəlxalq hüququn ümum qəbulolunmuş normaları olan dövlətlərin suveren bərabərliyi, dövlətlərin ərazi bütövlüyünə hörmət, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi, mübahisələrin dinc yolla həlli, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərini rəhbər tutaraq**,** beynəlxalq qurumları, elm və din xadimlərini, vətəndaş cəmiyyətinin nümayəndələrini, milliyyətindən, dinindən və irqindən asılı olmayaraq, əhalinin bütün təbəqələrini öz səylərini yerli və beynəlxalq səviyyədə münaqişələrin həllinə yönəltməyə, habelə davamlı inkişafı təmin etmək üçün həmrəyliyə səsləyirik.

Dünya ictimaiyyətini, nüfuzlu beynəlxalq təşkilatları Cənubi Qafqaz regionunda sabitliyə, sülhyaratma proseslərinə dəstək verməyə, habelə Ermənistan, Azərbaycan, Dağlıq Qarabağ münaqişənin sülh yolu ilə həllində Azərbaycanın haqlı mövqeyini dəstəkləməyə, ərazi bütövlüyünün bərpa edilməsində yardımçı olmağa çağırırıq.

**prof. Elmira Süleymanova**<br>
Azərbaycan Respublikasının<br>
İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)<br>
20 sentyabr 2014-cü il

*Müraciət BMT-nin Baş Katibinə, BMT Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, ATƏT-ə, Avropa Şurasına, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, Universal Sülh Federasiyasına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycan diaspor təşkilatlarına və xarici ölkələrin ombudsmanlarına göndərilmişdir.*